Hürriyyət
Təhsil
SİZİN ÜÇÜN QƏZET
№96 (3196) 14 Dekabr / 2021-ci il
www.hurriyyet.az; / hurriyyet@mail.ru


# Nizaminin əsərlərində tərbiyə və təhsil məsələləri



Sərdar ZEYNAL
Filologiya üzrə elmlər doktoru

**Məqalədə Nizami Gəncəvinin - "Xosrov və Şirin", "Leyli və Məcnun" və "Yeddi gözəl" əsərlərinin hər birinə daxil edilən "Oğlum Məhəmmədə nəsihət" bölmələrində elmə, təhsilə, oxumağa olan sevgi və məhəbbət və bu yolla gedib uğur qazanan insanların əldə etdikləri nailiyyətlərdən bəhs olunur.**

Hər bir xalqın gələcəyi bu gün yetişdirdikləri gənc nəslin tərbiyə və təhsilinin keyfiyyətindən asılıdır. Geniş elmi dünyagörüşə malik nəslin qurduğu dövlət, həyata keçirdiyi islahatlar, quruculuq işləri yalnız və yalnız xalqın rifahının yüksəldilməsinə xidmət edəcək və həmin xalqı dünyanın ən inkişaf etmiş xalqları sırasına çıxaracaqdır.

Gənc nəslin tərbiyə və təhsilinə diqqət, demək olar ki, Azərbaycan xalqının yetişdirdiyi, bütün görkəmli, yaradıcı şəxsiyyətlərin əsərlərində xüsusilə qabardılmış və sahə ilə bağlı çoxlu qiymətli fikirlər irəli sürülmüş, bu fikirlərin əksəriyyəti xalqın əxlaq kodeksinin tələblərinə çevrilmişdir.

Bu il 880 illik yubileyini qeyd edəcəyimiz dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Xəmsə"sində bu sahəyə xüsusi diqqət verilmiş, dünya şöhrəti qazanmış beş əsərdən üçündə,("Xosrov və Şirin" (1181),"Leyli və Məcnun"(1188),"Yeddi Gözəl"(1197)) bu məsələyə xüsusi bölmə ayırmış və uşaqların təhsil və tərbiyəsi ilə bağlı fikirlərini bu bölmələrdə əks etdirmişdir.

Nizami Gəncəvi yazdığı bu əsərlərdə təlim, tərbiyə məsələlərinə xüsusi bölmə ayırmış və fikirlərini "Oğlum Məhəmmədə nəsihət" adı altında əks etdirmişdir.

Öz övladlarına üz tutub onlara xitabən təlim-tərbiyə məsələlərini dilə gətirmək həm qədim,həm də orta əsr ədəbi nümunələrində özünü daha qabarıq şəkildə birüzə verir. Məsələn, Nizamidən təsirlənib "Leyli və Məcnun" mövzusunu öz ana dilində əvəzedilməz sənət nümunəsinə çevirən M. Füzuli də oğlu Fəzliyə həsr etdiyi "Fəzliyə nəsihət" qəsidəsini qələmə almışdır.

## Rezume

Lakin övlada, onun təhsilinə, tərbiyəsinə münasibət heç bir şairin yaradıcılığında Nizami səviyyəsinə qalxmamışdır.

O, ikinci əsəri olan və 1181-ci ildə Atabəy hökmdarı Məhəmməd Cahan Pəhləvanın xahişi ilə yazdığı "Xozrov və Şirin" əsərində yeddi yaşlı oğlunu unutmamış, əsərə ona müraciət ilə yazdığı "Oğlum Məhəmmədə nəsihət"



("Xosrov və Şirin" səh.342 )adlı bir parça daxil etmişdir. Hökmdarın sifarişi ilə yazılan əsərdə yeddi yaşlı övladın yada düşməsi, onun adının dövrün hakiminin sifarişi ilə əbədiləşdirilməsi Nizami dövründə övlada, onun tərbiyə və təhsilinə olan diqqət və qayğının hansı dərəcədə vacib bir məsələ kimi qarşıya qoyulduğundan xəbər verir.

Nizaminin "Xosrov və Şirin" əsərinə daxil etdiyi "Oğlum Məhəmmədə nəsihət" (səh.342-343) cəmi yeddi beytdən ibarətdir. Bu yeddi beytdə Nizami sanki oğlunun gələcək həyatının koordinatlarını göstərmiş, xoşbəxt olmağın yollarını yığcam şəkildə qeyd etmişdir.

Bununla bağlı Nizami dünyanı təzəcə dərk eləyən yeddi yaşlı oğluna üz tutaraq yazır:

***Yeddi yaşlı balam,gözümün nuru!***
***Dilimin əzbəri, qəlbim sürurु.***
***Ruzi verdi sənə, o Pərvərdigar,***
***Üstündə mənim yox, onun adı var***

Nizaminin övlada yanaşması bugünkü övlada yanaşma prinsiplərindən tamamı ilə fərqli şəkildə ortaya çıxır. O, övladına təkcə onun ocağına sahib,onun çırağını yandıran əvəzedici kimi baxmır. O, övlada, üstündə öz adı yox, Pərvərdigarın adı olduğu üçün müqəddəs yanaşır və buna görə də hökmdara həsr etdiyi əsərə çəkinmədən onun da adını qeyd edib ona müraciət etməkdən çəkinmir.Həm də onu, "üstündə Tanrının adı olanı"elmli, bilikli , təhsilli, namuslu görmək, öz atasından çox, Tanrının adına layiq bir insan olmağa çağırır və bununla bağlı yazır:

***Bilik kəsb etməklə dünyanı qazan,***
***Əsmanı oxu ki,məna alasan.***
***Qaç o sözlərdən ki,mənasız,boşdur,***
***İlahi elmlər öyrənmək xoşdur***
***Elə namuslu ol,desinlər görən:***
***"Ağıllı oğluna, Nizami, əhsən!"***

Bu beytlərdə oxucuya aid olmayan heç nə yoxdur. Tanrının ona bəxş etdiyi payı Nizami Tanrının adına layiq olmasa belə, heç olmasa, öz adına, Nizami adına layiq, yaraşan görmək istəyir.

Nizami üçüncü əsəri olan "Leyli və Məcnun"u (1188)Şirvanşah Axsitanın sifarişi ilə yazmaqdan imtina etmək istəyəndə artıq on dörd yaşa çatmış oğlu Məhəmmədin təkidindən yaxa qurtara bilmir və hökmdarı n sifarişini yerinə yetirməkdən qaça bilmir, onu qələmə almaq məcburiyyətində qalır.

Burada söhbət təkcə əsərin yazılması məsələsindən getmir, övlada verilən, qiymətdən ona münasibətdən gedir. Dövrünün hökmdarının sözündən-sifarişindən imtina etmək istəyən Nizami öz on dörd yaşlı övladının sözündən qaça bilmir və "Leyli və Məcnun" kimi möhtəşəm bir əsəri yazıb tarixdə yaşatmağa məcbur olur.

Bu təkcə övlad şirinliyindən irəli gələn tələb deyil, bu "Xosrov və Şirin"əsərində də qeyd etdiyi kimi, üstündə Pərvərdigarın adının olmasından irəli gələn müqəddəslikdir. Nizami övlada Pərvərdigardan sonra ən uca bir varlıq kimi yanaşır, onu Tanrıdan aşağı, hökmdardan yuxarı nöqtədə canlandırır.

Nizami "Leyli və Məcnun"əsərini də qələmə alarkən,oğlunu unutmamış, bu əsərə də iyirmi yeddi beytdən ibarət "Oğlum Məhəmmədə nəsihət" (səh.51-52) adlı bir parça daxil etmişdir. Bu parçada Nizami oğluna müraciətlə yazır:

***Sən,ey on dörd yaşlım,hər elmə yetkin!***
***Gözümdə əksi var iki aləmin!***
***...Qəflətdə oynama, qeyrət vaxtıdır,***
***İndi hünər vaxtı, şöhrət vaxtıdır.***
***Ucalmaq istəsən , bir kamala çat,***
***Kamala ehtiram göstərir həyat***

Ağıl insana Tanrı tərəfindən verilən təmənnasız pay olsa da,o,insanı təkmilləşmədən əbədi yaşatmaqda acizdir. Tanrının verdiyi ağıldan səmərəli istifadə etmək üçün həmin ağlın sahibi daimi onu təkmilləşdirməli və inkişaf etdirməlidir.

Şair üz tutduğu oğluna atasının adsanına, mal-dövlətinə arxayın olmamağı məsləhət görür və ona:

***Sən aslanlar kimi keç cəbhələrdən,***
***Yalnız hünərinin balası ol sən!***
***Səadət kamalla yetişir başa,***
***Xalqa hörmət elə, ədəblə yaşa, deyir.***

Şair oğluna müraciətində heç kəsə güvənməməyi, yalnız öz elminə, savadına güvənməyi məsləhət görür. Onu göylərə qaldıran, hökmdarları belə onun ayağına gəlməyə vadar edən şeirin belə hörmətdən düşdüyünü söyləyir. Ona görə də məsləhət görür ki:

***İsa mərifətli həkim ol,amma,***
***İnsanı öldürən bir həkim olma.***
***...Bir elmi öyrənmək istədikdə sən,***
***Çalış ki,hər şeyi kamil biləsən,***
***Kamil bir palançı olsa da insan,***
***Yaxşıdır yarımçıq papaqçılıqdan.***
***Məndən söyləməkdir,səndən eşitmək.***

Bir insan əliboş gəzməsin gərək(-səh.52)

Nizami Gəncəvi 1797-ci ildə qələmə aldığı "Yeddi Gözəl"əsərində də oğlu Məhəmmədi nəzərdən qaçırmamış, bu əsərə də ona müraciətlə yazılmış, "Oğlum Məhəmmədə nəsihət" (səh.48-51) adlı bir parça daxil etmişdir.

*(Ardı var)*